Yazan
28.11.13 23:01 -



Azərbaycan prezidenti İlham Əliyev bu gün Vilnüsdə Litvanın baş naziri Alqirdas Butkeviçius ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Litva arasında ikitərəfli əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluq ifadə olunub. Azərbaycan tərəfindən Litvaya investisiya qoyuluşu, ölkələrimiz arasında enerji, ticarət və digər sahələrdə əməkdaşlığın inkişafı üçün yaxşı imkanların olduğu bildirilib.

Həmçinin görüşdə ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.